Vətənpərvərlik

Onlar Vətən uğrunda döyüşmüşlər



Azərbaycan torpaqları üzərindən tarixin ən şərəfli, ən qürurlu, eyni zamanda göz yaşları ilə sulanan səhifələri 2020-ci ilin payızında yazıldı. Gecənin ayazını, gündüzün odunu-alovunu qəlbinin hərarəti ilə əridən minlərlə igid Vətən çağırışına səs verdi. Onlar "Vətən sağ olsun!" deyərək ölümə meydan oxudular, ölməzliyə imza atdılar.

Hər şəhidin hekayəsi bir dastan, hər birinin keçdiyi yol bir qəhrəmanlıq zirvəsidir. Biri yeni quracağı ailənin xəyallarını yarımçıq qoyub cəbhəyə tələsdi, biri illərlə həsrətini çəkdiyi körpəsinin ətrini doyunca almamış silahına sarıldı. Bu gənclər ölümün gözünə dik baxdılar. Onların hədəfi tək bir şey idi: 30 illik həsrətə son qoymaq, ana yurdun üzərinə çökmüş qara buludları dağıtmaq.

2020-ci ilin payızında Qəbələnin igid ərənləri hər biri "Vətən var olsun!" deyərək odlu-alovlu səngərlərə yollandı. Qəbələnin igidləri Füzulidən, Cəbrayıldan, Xocavənddən, Şuşanın sıldırım qayalarından keçən zəfər yolunda öz qanları ilə tarix yazdılar. Onlar dağlar oğlunun şücaətini düşmənə göstərdilər. Hər birinin şücaəti bir dastan, axan hər damla qanı bu torpağın azadlıq möhürü oldu.

2020-ci ilin oktyabrı... Payızın sarı geyimli, sərt nəfəsli günləri idi. Azərbaycanın hər yerindən olduğu kimi, Qəbələnin də yaşıllıqlar qoynundan, dağətəyi kəndlərindən qartal baxışlı oğullar ön cəbhəyə-ölüm-dirim savaşının tam mərkəzinə atıldılar.

Müharibənin həlledici dövrünün qəhrəmanları

Oktyabr ayında: 01.10.2020 tarixində Mıxlıqovaq kəndinə Mikayıllı Mikayıl Miğfər oğlunun, 02.10.2020 tarixində Əmirvan kəndinə Abdurahmanov Elvin Əbülfəz oğlunun, 03.10.2020 tarixində Mıxlıqovaq kəndinə Əmiraslanov Ümman Namiq oğlunun, 06.10.2020 tarixində Tüntül kəndinə Kərimov İsmayıl Abbas oğlunun, Bum qəsəbəsinə Süleymanov Vasif Akif oğlunun, 07.10.2020 tarixində Yeni Dızaxlı kəndinə Cəlilov Tural Callad oğlunun, 08.10.2020 tarixində Çuxur Qəbələ kəndinə Şirinov Tale Qadir oğlunun, 10.10.2020 tarixində Mıxlıqovaq kəndinə Yusifov İmaməddin Niyaməddin oğlunun, Qəbələ şəhərinə Mustafayev Elməddin Məhəmməd oğlunun, Əmirvan kəndinə Abdurahmanov Əfqan Ağasəf oğlunun, 12.10.2020 tarixində Böyük Pirəli kəndinə, Eyyubov Sərvan Yusif oğlunun, 13.10.2020 tarixində Bum qəsəbəsinə Heydərov Adəm İkram oğlunun, 23.10.2020 tarixində Tüntül kəndinə Atakişiyev Rüstəm Zahid oğlunun, 24.10.2020 tarixində Yeni Dızaxlı kəndinə Səfərçinov Xeyirbəy Cəlil oğlunun, Kiçik Əmili kəndinə Bayramov Coşqun Ənvər oğlunun, 28.10.2020 tarixində Qəbələ şəhərinə Babayev İqbal Zəki oğlunun, Əmirvan kəndinə Bayramov Aydın Mətləb oğlunun, 30.10.2020 tarixində Tüntül kəndinə Ağayev Tapdıq Çingiz oğlunun şəhid xəbəri gəldi.

O payız ayında Qəbələyə qara xəbərlər gəldikcə dağlar da sanki başını buludlara əydi. Ancaq hər bir şəhid tabutunun üzərinə sərilən üçrəngli bayraq qəlblərdəki qüssəni qürura çevirdi. Onlar oktyabrın qanlı-qadalı yollarında canlarından keçməklə bu torpağın adını ucaltdılar.

Bu gün oktyabr yeli yenə Qəbələnin dağlarını fırlanır, meşələrdə səssiz bir mahnı oxuyur. Həmin günlərdə zirvələrə ucalan Qəbələ şəhidləri indi doğma yurdun hər qarışında, əsən hər küləkdə, dalğalanan hər bayraqdadır. Ən ümdəsi onların ruhları artıq narahat deyil. Çünki düşmən əsarətində olan torpaqlarımız azaddır və o torpaqlarda 6 ildir ki, abadlaşdırma işləri aparılır, şəhər və kəndlərimiz yenidən, həm də müasir zamana uyğun şəkildə qurulur. Ən sevindirici hal isə elindən-obasından didərgin düşən əhali öz doğma obalarına qayıdır. Artıq qaçqın, köşkün adları ləğv olunmuşdur. Azad olunmuş torpaqlar öz övladlarının isti nəfəsi ilə daha da gözəlləşir, vətənləşir. Zəfər tarixi yazan, Vətəninə canını qurban verən şəhidlərimiz əbədiyyət qazanaraq hər kəsin qəlbində yaşayırlar.

Qanı ilə bu torpağı sulayan qəhrəmanlar, ruhunuz qarşısında baş əyirik. Siz unudulmamısınız, unudulmayacaqsınız!

İlahə EYVAZLI.

Dövlətçiliyimiz və dinimiz xalqımızın güc simvoludur

(Əvvəli 5-ci səhifədə).

verilməməsidir.

Məktəblərə "hicabla" gələn müəllim və şagirdlər arasında bəzi narazılıq hallarına təsadüf edilmişdir. Bildiyimiz kimi, hicab sözü dilimizə "pərdə", "örtük", "maneə", "gizlənmək" mənası verən söz kimi daxil olmuşdur. İslami termində "hicab" yetkinlik yaşına çatmış müsəlman qadınının naməlum kişilərin yanında bədənini (çiyinləri, saçları və bədən xətlərini) örtməsi məqsədilə istifadə olunan geyimi ifadə edir. İslamdan qabaq dünyanın müxtəlif yerlərində hicab və örpək mövcud olmuş və heç də onu ilkin olaraq islam dini ixtira etməmişdir. Hətta xristianlarda da, kilsələrdə örtüklərdən istifadə edirlər.

Hicab insanların öz arzu və istəyi ilə istifadə olunan örtükdür. Son vaxtlar çox kiçik yaşlarında olan (hətta ibtidai sinifdə oxuyan) qızlarımız da bu geyim formasından istifadə edirlər. Ancaq dinimizdə hicab yetkinlik yaşına çatmış müsəlman qadınına aid olması haqda qeyd olunur.

Hicab qadınlarımıza yaraşan geyim olsa da məktəbli forması deyil. Əgər bir dünyəvi forma kimi vahid məktəbli forması təyin olunmuşsa, məktəblərimizdə hər kəs aid olduğu dövlətin qərarlarına hörmətlə yanaşmalıdır. Həm də məktəblilər-istər oğlan, istərsə də qızlar vahid formada məktəbli adını təsbit etməlidir. Bu heç də hicaba, ən başlıcası dinimizə hörmətsizlik deyil. Ölkəmiz hüquqi dövlətdir, dinimiz də islam dinidir. Hər kəs, hər birimiz mənsub olduğumuz dinimizi sevirik. Həmçinin yaşadığımız dövlətimiz də, bu dövlətə məxsusluğumuz da bizim fəxrimizdir. Məhz buna görə də dövlətimizin verdiyi qərar və sərəncamlar hər bir vətəndaşa şamil edilir və onlara riayət edilməsi də vətəndaşlıq borcumuzdur.

Bildiyimiz kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 sentyabr 2026-cı il tarixli 309 nömrəli qərarı ilə dövlət ümumi təhsil müəssisələrində şagirdlərin geyim forması ilə bağlı dəyişiklik edilib.

Qərarın əsas müddəaları:

Dünyəvilik prinsipi: Qərarda məktəbli formasının vahidliyinə və ümumi təhsilin dünyəvilik prinsipinə uyğun olmayan əlavə geyim elementlərindən istifadəyə yol verilməməsi əksini tapıb.

Hicab və dini simvollar: sənəddə "hicab" və ya hər hansı dini simvolun adı birbaşa çəkilməsə də, dünyəvilik prinsipi və vahid geyim tələbləri əsas gətirilərək məktəblərdə bu tipli əlavə geyim elementlərinin istifadəsi məhdudlaşdırılır.

Milli geyimlərdən isə Azərbaycan xalqının tarixi, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə bağlı keçirilən tədbirlərdə məktəbin Pedaqoji Şurasının qərarı ilə geyimlərdən və geyim elementlərindən istifadə edilməsinə icazə verilir.

Qərarda ümumi ifadə işlədilir, məktəbli formasının vahidliyini pozan, həmçinin ümumi təhsilin dünyəvilik prinsipinə uyğun olmayan digər geyim elementlərindən (sənəddə "hicab" sözü və ya başqa konkret dini geyim elementlərinin adı çəkilmir) istifadəyə yol verilmir.

Həmçinin dövlət ümumi təhsil müəssisələrində təhsilverənlər (müəllimlər) üçün geyim ilə bağlı tələblər irəli sürülmüşdür.

Təhsil verənlər üçün geyim ilə bağlı tələblər "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 12.13-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq hazırlanmışdır və dövlət ümumi təhsil müəssisələrində təhsilverənlər üçün geyim ilə bağlı vahid qaydaları müəyyən edir. Bu tələblərin məqsədi təhsilverənlərin geyimi ilə bağlı vahid yanaşmanın müəyyənləşdirilməsi, məktəbdə işgüzar geyim mədəniyyətinin formalaşdırılmasıdır.

Təhsilverənlər əmək funksiyalarını yerinə yetirdikləri müddətdə məktəbdə, habelə məktəbi təmsil etdikləri məktəbdənkənar rəsmi və təntənəli tədbirlərdə bu tələblərə riayət etməlidirlər. Təhsilverənlərin geyimi, həmçinin istifadə etdikləri geyim elementləri ümumi təhsilin dünyəvilik prinsiplərinə uyğun olmalıdır.

Bu tələblərə, həm məktəblilər, həm də təhsilverənlər tərəfindən riayət edilməsinə məktəbin rəhbərliyi nəzarət edir, məktəbin Pedaqoji Şurası bu məsələləri həll edir.

Məktəb sabaha, gələcəyə aparan yoldur. Bu yol məktəb qapısına ayaq basan körpələrin qədəmləri ilə başlanır və onlar 11 il təhsil aldıqdan sonra gəncliyin astanasına yeniyetmə kimi hazırlanırlar. Həyatın davamçıları olan bugünki məktəblilər sağlam mühitdə formalaşmalıdır ki, xalqımızın milli-mənəvi dəyərləri qoruna bilsin, ölkəmiz dünya dövlətləri arasında güclü potensiala malik bir dövlət kimi tanınsın. Bunun isə ən ilkin yolu təhsildən başlanır. Dünyəvi dövlət kimi lazımi tələblərə riayət etməklə ölkəmizin, dövlətimizin gücünü daha da artırmalıyıq və dövlətimizin siyasətini dəstəkləməliyik.

Məhz buna görə də məktəblilərimizin təhsilinə daim diqqətli olmalıyıq. Onların təhsildən yayınmasına yol verməməliyik. Cahillik insanı məhvə aparır, elm sabahkı uğur, inkişaf deməkdir. Övladlarımızın gələcəyini düşünməliyik, onların gələcəyini məhv etməməliyik. Buna görə də, tək-tək də olsa hər hansı məktəblinin təhsil ocağından yayınma hallarına yol verməməliyik, çünki bu onun sağlam gələcəyinin qarantıdır. Valideynlər öz övladlarının arzu və istəklərinin reallaşmasına çalışmalıdır.

Dövlətimizin və mənsub olduğumuz dinin birgəliyi güc simvoludur. Bu isə xalqın gücü deməkdir.

Bibixanım İSAYEVA.

Müasir heyvan kəsimi məntəqələrinin yaradılması



Qəbələ Rayon İcra Hakimiyyətinin və Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) birgə təşkilatçılığı ilə müasir heyvan kəsimi məntəqələrinin yaradılması ilə bağlı sahibkarlarla görüş keçirilmişdir. Tədbirdə çıxış edənlər Azərbaycan



Respublikası Prezidentinin 2018-ci il 11 iyun tarixli 199 nömrəli Sərəncamına əsasən, sahibkarların iştirakı ilə müasir stasionar, modul və mobil tipli heyvan kəsimi məntəqələrinin yaradılması, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində heyvanların identifikasiyası və elektron uçotunun yekunlaşdırılması, onların hərəkətinin və qida zəncirinin elektron qaydada izlənilməsinin nəzərdə tutulduğunu bildirmişlər. Görüşdə sahibkarlara investisiya imkanlarını nəzərdən keçirərək, müvafiq layihələrdə iştirak etmələri tövsiyə olunmuşdur.